

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 5 (21.666)

10 yanvar 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Peru Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Luis Manuel Santiaqo Markoviç Monasinin etimadnaməsini qəbul edib.

Səfir Luis Manuel Santiaqo Markoviç Monasi fəxri qarovul dəstəsinin qarşısından keçib.

Luis Manuel Santiaqo Markoviç Monasi etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Marin Mittusun etimadnaməsini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da Finlandiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri xanım Arya İnkeri Makkonenin etimadnaməsini qəbul edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri İranın Naxçıvandakı Baş Konsulluğunda Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar başsağlığı vermişdir



İran İslam Respublikasının dördüncü Prezidenti, görkəmli dövlət xadimi Əli Əkbər Haşimi Rəfsəncani 2017-ci il yanvarın 8-də vəfat etmişdir.

Yanvarın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğuna gəlmiş, görkəmli dövlət xadimi Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar başsağlığı vermişdir.

Ali Məclisin Sədri Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı xəbərini kədərlə qarşıladığını bildirmişdir. Ali Məclisin Sədri Azərbaycan-İran əlaqələrinin əsasının ümummilli lider Heydər Əliyev və görkəmli dövlət xadimi Əli Əkbər Haşimi Rəfsəncani tərəfindən qoyulduğunu qeyd etmiş, Naxçıvan Muxtar Respublikasının ağır dövründə Əli Əkbər Haşimi Rəfsəncaninin xidmətlərini diqqətə çatdırmışdır.

İranın Naxçıvandakı baş konsulu Mənsur Ayrom Əli Əkbər Haşimi Rəfsəncaninin İran İslam Respublikasının inkişafı sahəsində gördüyü işlərdən danışmış, göstərilən diqqətə görə minnətdarlıq etmişdir.

Sonra Qurani-Kərimdən ayələr oxunmuşdur.

Ali Məclisin Sədri baş konsulluqda Əli Əkbər Haşimi Rəfsəncaninin vəfatı ilə əlaqədar açılan xatirə dəftərini yazmış, İran dövlətinə və xalqına başsağlığı vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Bu Qanun Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq müasir elmi nailiyyətlərə və tibbi təcrübəyə əsaslanaraq insan orqan və ya toxumalarının transplantasiyası (köçürülməsi) ilə bağlı münasibətləri tənzimləyir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1. insan orqan və ya toxumalarının transplantasiyası (bundan sonra – transplantasiya) – insan həyatının xilas edilməsi və sağlamlığının bərpası üçün cərrahiyyə əməliyyatı aparmaqla xəstədə olmayan və ya zədələnən orqan və ya toxumaların donorun və ya insan meyitinin orqan və ya toxumaları ilə əvəz edilməsi;

1.0.2. insan orqan və ya toxumaları – şəxsiyyətin xarakterik xüsusiyyətlərini müəyyən etməyən anatomik struktur vahidi;

1.0.3. donor – öz orqan və ya toxumalarını xəstə şəxslərə köçürmək üçün könüllü olaraq verən şəxs;

1.0.4. resipiyent – müalicə məqsədi ilə orqan və ya toxumalar köçürülən şəxs.

Maddə 2. **Transplantasiya obyekti olan orqan və ya toxumaların siyahısı**

2.1. Ürək, ağ ciyər (ürək-ağ ciyər kompleksi), böyrəklər, qara ciyər, mədəaltı vəzi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən digər orqan və ya toxumalar transplantasiyanın obyekti ola bilərlər.

2.2. Bu Qanun reproduksiya vəzifələrinə və bu məqsədlə istifadə edilən orqanlara, onların hissələrinə və ya toxumalara, eləcə də qan və onun komponentlərinə şamil edilmir.

Maddə 3. **Transplantasiya haqqında qanunvericilik**

Transplantasiya haqqında Naxçıvan Muxtar Respublikasının qanunvericiliyi bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

Maddə 4. **Transplantasiyanın qaydaları və şərtləri**

4.1. Transplantasiya tibbi göstəriş əsasında cərrahiyyə əməliyyatı qaydalarına riayət etməklə aparılır.

4.2. Transplantasiyanın qaydaları və şərtləri, onun həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 5. **Donor həddinin müəyyən edilməsi**

5.1. Digər tibbi üsullarla və meyitdən götürülmüş orqan və ya toxumalar vasitəsi ilə insan həyatının saxlanması və ya sağlamlığının bərpası mümkün olmadıqda, resipiyentə donordan orqan və ya toxumaların transplantasiyasına yol verilir.

5.2. Donorun yaşı 18-ə çatmadıqda ondan sümük iliyi istisna olmaqla, transplantasiya məqsədi ilə orqan və ya toxumaların götürülməsi qadağandır.

5.3. Donorun ölümünə mütləq səbəb ola bilən və ya sağlamlığına təhlükə törədən orqan və ya toxumaların götürülməsi qadağandır.

5.4. Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliyi olan şəxslərdən orqan və ya toxumaların götürülməsi qadağandır.

5.5. Resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hərbi əsirlərdən və ruhi xəstələrdən transplantasiya məqsədi ilə orqan və ya toxumaların götürülməsi yolverilməzdir.

5.6. Donordan orqan və ya toxumaların götürülməsi mütəxəssis-həkimlərin konsiliumu nəticəsində müəyyən edilir və donorun yazılı razılığı əsasında həyata keçirilir.

5.7. Hər hansı şəxsi orqan və ya toxumaların götürülməsinə məcbur edənlər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 6. **Orqan və ya toxumaların götürülməsini, hazırlanmasını (konservasiyasını) və saxlanılmasını həyata keçirən tibb müəssisələri**

6.1. Orqan və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması yalnız ixtisaslaşdırılmış tibb müəssisələrində aparılır.

6.2. Orqan və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 7. **Transplantasiya barədə tibbi qərar**

Transplantasiyanın zəruriliyi barədə tibbi qərar müvafiq tibb müəssisəsində müalicə həkimi, cərrah, anestezioloq və zərurət olduqda digər mütəxəssislərdən təşkil olunmuş komissiya tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada qəbul edilir.

Maddə 8. **Transplantasiyaya resipiyentin razılığı**

8.1. Transplantasiya yalnız resipiyentin yazılı razılığı əsasında həyata keçirilir. Bu əməliyyatla bağlı gözlənilən ağırlaşmalar haqqında ona məlumat verilir.

8.2. Resipiyent 18 yaşına çatmayıbsa, transplantasiyaya onun valideynləri və ya qanuni nümayəndəsi tərəfindən yazılı razılıq verilir.

8.3. Resipiyentin həyatı təhlükədə olarsa, istisna hal kimi onun özünün, valideynlərinin və qanuni nümayəndəsinin razılığı alınmaya bilər.

### 2-ci fəsil
### TRANSPLANTASİYA MƏQSƏDİ İLƏ MEYİTDƏN ORQAN VƏ YA TOXUMALARIN GÖTÜRÜLMƏSİ

Maddə 9. **Transplantasiya məqsədi ilə meyitdən orqan və ya toxumaların götürülməsi**

9.1. Şəxs sağlığında donorluğa yazılı razılığını bildirərsə, ölümündən sonra transplantasiya məqsədi ilə onun orqan və ya toxumalarından istifadə oluna bilər.

9.2. Şəxs bu məsələyə münasibətini bildirməyibsə, ölümündən sonra yaxın qohumlarının və ya qanuni nümayəndələrinin icazəsi ilə onun orqan və ya toxumalarının götürülməsinə yol verilir.

Maddə 10. **Meyitdən və ya ölüm vəziyyətində olan şəxslərdən transplantasiya məqsədi ilə orqan və toxumaların götürülməsi vaxtının müəyyən edilməsi**

10.1. Meyitdən və ya ölüm vəziyyətində olan şəxslərdən transplantasiya məqsədi ilə orqan və ya toxumaların götürülməsi yalnız mütəxəssis-həkimlərdən ibarət konsilium tərəfindən bioloji ölümün baş verməsini və baş-beyin fəaliyyətinin tam dayanmasını (“beyin ölümünü”) təsdiq edən inkaredilməz faktın olmasından sonra həyata keçirilə bilər.

10.2. Donorun ölüm aktının təsdiqində transplantoloq və ya transplantologiya işinin təşkilində bu və ya digər formada fəaliyyət göstərən digər maraqlı şəxslərin iştirakı qadağandır.

Ardı 2-ci səhifədə

Maddə 11. **Meyitdən orqan və ya toxumaların götürülməsinə icazə verilməsi**

11.1. Meyitdən transplantasiya məqsədi ilə orqan və ya toxumaların götürülməsinə bu Qanunun 9-cu və 10-cu maddələrinin tələbləri əsasında icazə verilir.

11.2. Meyitin məhkəmə-tibb ekspertizası zəruridirsə, məhkəmə-tibb eksperti meyitdən orqan və ya toxumaların götürülməsinə icazə verməyə bilər.

**3-cü fəsil**

**TRANSPLANTASİYA MƏQSƏDİ İLƏ DONORDAN ORQAN VƏ YA TOXUMALARIN GÖTÜRÜLMƏSİ**

Maddə 12. **Donordan orqan və ya toxumaların götürülməsi şərtləri**

12.0. Donordan orqan və ya toxumaların götürülməsi zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır:

12.0.1. donor nəzərdə tutulan cərrahiyyə əməliyyatı ilə bağlı sağlamlığı üçün baş verə biləcək ağırlaşmaların mahiyyəti, mümkün psixoloji və sosial nəticələri barədə məlumatlandırılmalıdır;

12.0.2. donor kənar təsirlər olmadan orqan və ya toxumaların götürülməsinə yazılı razılığını bildirməlidir;

12.0.3. donorun hərtərəfli tibbi müayinədən keçməsi və mütəxəssis-həkimlər tərəfindən ondan orqan və ya toxumaların götürülməsinin mümkünlüyü barədə rəy olmalıdır;

12.0.4. orqan və ya toxumalarının götürülməsi nəzərdə tutulan donorun resipiyentlə genetik uyarlığı müəyyən olunmalıdır.

Maddə 13. **Donorun hüquq və vəzifələri**

13.1. Donorun hüquqları aşağıdakılardır:

13.1.1. orqan və ya toxumaların götürülməsi nəzərdə tutulan tibb müəssisəsindən planlaşdırılan tibbi əməliyyata bağlı gözlənilən ağırlaşmalar barədə tam və obyektiv məlumat almaq;

13.1.2. bu əməliyyatla bağlı tibb müəssisələrində pulsuz müalicə və reabilitasiya olunmaq, o cümlədən dərman vasitələri ilə təmin olunmaq;

13.1.3. donorluqla əlaqədar əlil və ya sağlamlıq imkanları məhdud olarsa, qanunvericiliyə uyğun olaraq pensiya almaq.

13.2. Orqan və ya toxumalarının köçürülməsinə razılıq verən donor özünün zərərli vərdişləri və ona məlum olan xəstəlikləri barədə məlumat verməlidir.

Maddə 14. **Donordan orqan və toxumaların götürülməsinə məhdudiyyət**

Donordan transplantasiya üçün cüt orqanlardan birini, tək orqan və ya toxumalardan isə o miqdarda və həcmdə götürmək olar ki, donorun həyatı üçün təhlükəli hallar, yaxud onun sağlamlığında bərpaolunmaz pozğunluqlar yaranmasın.

**4-cü fəsil**

**TİBB MÜƏSSİSƏLƏRİNİN VƏ TİBB İŞÇİLƏRİNİN MƏSULİYYƏTİ**

Maddə 15. **Donor və resipiyent haqqında məlumatların yayılmasına görə məsuliyyət**

15.1. Donor və resipiyentin razılığı olmadan tibb işçilərinin transplantasiya barədə məlumat yaymaları qadağandır.

15.2. Bu məlumatları yayan şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

Maddə 16. **Transplantasiya ilə bağlı maarifləndirmə**

16.1. Transplantasiyaya aid məlumatlandırmaya tibb və əczaçılıq sahəsində ixtisaslaşmış mətbuat orqanlarında, tibb işçiləri və əczaçılar üçün keçirilən yığıncaqlarda yol verilir.

16.2. Elmi, statistik və xəbər xarakterli məlumat verilməsi halları istisna olmaqla, orqan və ya toxuma götürülməsi və transplantasiyası ilə bağlı reklam qadağandır.

Maddə 17. **İnsan orqan və ya toxumalarının alqı-satqısının yolverilməzliyi**

17.1. İnsan orqan və ya toxumaları alqı-satqı obyekti ola bilməz. Onların alqı-satqısı ilə məşğul olan hüquqi və fiziki şəxslər qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

17.2. Qanunun bu müddəaları toxuma komponentlərindən hazırlanmış köçürmə materiallarına və preparatlara şamil edilmir.

Maddə 18. **Tibb müəssisələrinin məsuliyyəti**

Transplantasiya zamanı orqan və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması qaydaları pozularsa, bununla əlaqədar donorun və resipiyentin sağlamlığına zərər vurularsa, müvafiq tibb müəssisəsi qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

Maddə 19. **Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2017-ci il*

## "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 7 yanvar tarixli 7 - V QN nömrəli Qanununun tətbiqi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## FƏRMANI

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikasının 2017-ci il 7 yanvar tarixli 7-V QN nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi:

1.1. "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 2.1-ci maddəsində nəzərdə tutulmuş transplantasiya obyekti olan orqan və ya toxumaların siyahısını təsdiq etsin;

1.2. həmin Qanunun 4.2-ci maddəsində nəzərdə tutulmuş orqan və ya toxumaların transplantasiyasının qaydaları və şərtlərini, habelə onun həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısını təsdiq etsin;

1.3. həmin Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş orqan və ya toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması qaydalarını təsdiq etsin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 2.1-ci, 4.2-ci, 6.2-ci və 7-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2017-ci il*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## QƏRARI

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 14.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) məruzəsi nəzərə alınsın.

2. İnsan hüquq və azadlıqlarının təmin edilməsi ilə bağlı məsələlər gündəlik nəzarətdə saxlansın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 yanvar 2017-ci il*

## Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2016-cı ildə fəaliyyəti haqqında illik

## MƏRUZƏ

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) muxtar respublikada vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş tədbirləri 2016-cı ildə də davam etdirmişdir.

2016-cı ildə Müvəkkilin ünvanına yazılı, şifahi və elektron formada 106 **müraciət** daxil olmuşdur. Daxil olan müraciətlərin 45-ni şikayətlər, 61-ni isə ərizələr təşkil etmişdir.

Qanunun tələblərinə müvafiq olaraq şikayətlərin Müvəkkilin səlahiyyətlərinə aid olmaması səbəbindən 8 şikayətə baxılmasından imtina edilmişdir. 37 müraciət baxılmaq üçün icraata qəbul edilmiş, onlardan 10-u təmin edilmişdir. 27 şikayətə baxılması zamanı hüquq pozuntusu aşkar edilməmişdir. Daxil olan müraciətlərin araşdırılması ilə əlaqədar muxtar respublikanın dövlət və yerli özünüidarəetmə orqanlarına müvafiq sorğular ünvanlanmış, ərizəçilərə hüquqları izah edilmişdir.

Müraciətlərə qanunla müəyyən edilmiş müddətlərdə baxılmış və daxil olan bütün müraciətlər cavablandırılmışdır.

2016-cı ildə də Müvəkkil **hüquqi maarifləndirmə** sahəsində fəaliyyətini əsasən insan hüquqlarının müxtəlif istiqamətləri üzrə, müxtəlif sosial qruplara ünvanlanan müvafiq tədbirlərin həyata keçirilməsi və maarifləndirici vəsaitlərin hazırlanması istiqamətində davam etdirmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada tətbiqi vəziyyətinin öyrənilməsi, habelə görülən işlərin müzakirəsi və əlaqələndirilməsi məqsədilə aid qurumların iştirakı ilə müvafiq konfranslar keçirilmiş, Proqramın icrası təmin edilmişdir.

Hər il olduğu kimi insan hüquqları sahəsində əlamətdar günlər "18 iyun Azərbaycan Respublikasında İnsan Hüquqları Günü", "21 sentyabr Beynəlxalq Sülh Günü", "10 dekabr Beynəlxalq İnsan Hüquqları Günü" qeyd edilmiş və müvafiq tədbirlər keçirilmişdir.

Ümumilikdə, 2016-cı il ərzində Müvəkkil təsisatı tərəfindən müxtəlif sosial qruplara ünvanlanmış və insan hüquqlarının müxtəlif istiqamətləri üzrə 77 tədbir keçirilmiş, o cümlədən hüquqi maarifləndirici vəsaitlər hazırlanaraq yayılmışdır.

2016-cı ildə **Hərbi qulluqçuların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə** diqqət mərkəzində olmuş, Əlahiddə Ümumqoşun Ordusu və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası ilə birgə hazırlanmış tədbirlər planına əsasən muxtar respublika ərazisindəki birləşmə və hərbi hissələrdə tədbirlər keçirilmiş, hüquqi vəsaitlər təqdim edilmişdir.

**Ötən ildə məhkumların hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmənin** həyata keçirilməsi davam etdirilmiş, Ədliyyə Nazirliyi ilə hazırlanmış birgə tədbirlər planına əsasən cəzaçəkmə müəssisələrində insan hüquqlarının müxtəlif istiqamətləri üzrə maarifləndirici tədbirlər keçirilmiş, müəssisənin kitabxanalarına hüquqi vəsaitlər təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2016-cı ildə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyində olan cəzaçəkmə müəssisələrində 9 məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, 3 məhkumun cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmişdir. Bununla yanaşı 28 May Respublika Günü ilə əlaqədar qəbul edilmiş amnistiya aktına əsasən 9 məhkum cəzasının çəkilməmiş hissəsindən vaxtından əvvəl azad edilmiş, 1 məhkumun isə cəzası 6 ay azaldılmışdır.

Ümumilikdə, 2016-cı il ərzində cəzaçəkmə müəssisələrində cəza çəkən 22 məhkum barəsində humanist tədbirlər tətbiq edilmişdir.

2016-cı ildə **Müvəkkil preventiv mexanizm** yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə ümumilikdə 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 102 başçəkmə həyata keçirmiş, preventiv mexanizmin fəaliyyəti ilə bağlı maarifləndirmə tədbirlərində 1036 nəfər iştirak etmişdir.

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Qanuna edilən 22 iyul 2016-cı il tarixli dəyişikliklərə əsasən preventiv mexanizm funksiyalarının qanunsuz miqrantların saxlanılması mərkəzinə də şamil edilməsi təsisatın fəaliyyətinin təkmilləşdirilməsinə, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi işinin daha səmərəli təşkilinə xidmət etmişdir.

Ötən il ərzində Müvəkkil aparatında **beynəlxalq təcrübə mübadiləsi sahəsindəki** əlaqələrin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmış, beynəlxalq qurumların Azərbaycan üzrə ofisləri, xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin nümayəndələri ilə görüşlər keçirilmişdir.

**Ötən ildə də informasiya və ictimaiyyətlə əlaqələrin təşkili** istiqamətində işlər davam etdirilmişdir.

Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının daha da zənginləşdirilməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkil və təsisatın fəaliyyətinin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılmışdır.

Qeyd edilməlidir ki, ötən illər ərzində muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı və bu sahədə hüquqi bazanın formalaşdırılması əsas insan və vətəndaş hüquq və azadlıqlarının, o cümlədən informasiya əldə etmək hüququnun, fikir, söz, məlumat azadlığının daha səmərəli təmin edilməsinə xidmət etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemlərinin istifadəyə verilməsi vətəndaş cəmiyyətinin, vətəndaşla dövlət orqanları arasında münasibətlərin inkişafında, dövlət orqanlarının vətəndaşların müraciətlərini və onların icrası ilə bağlı digər məlumatların vaxtında qeydiyyata alınması və vətəndaşların müraciət etmək hüququnun daha da səmərəli təmin edilməsində mühüm rol oynamışdır.

Qeyd edilməlidir ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı, bütün sahələrdə müasir çağırışlara əsaslanan yeni üsul və sistemlərin tətbiqi, habelə dövlət orqanlarının fəaliyyətinin davamlı təkmilləşdirilməsi insan hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsi və etibarlı müdafiəsinə də geniş imkanlar açmışdır.

Müvəkkil təsisatı muxtar respublikamızda yaradılan şəraitdən istifadə edərək bundan sonra da üzərinə düşən vəzifələrin yerinə yetirilməsi istiqamətində səylərini davam etdirəcəkdir.

*Şəhərləşən kəndlərimiz*

# Qarlı, şaxtalı günlərdə
## *Biçənəkdə həyat öz ahəngindədir*

***Məktəbli olanda odun-kömür daşımaq, valideynlərə şaxtalı qış günlərində kömək etmək biz kiçiklərin böyük vəzifəsi idi. Ona görə də çöldə-bayırda oynamaq, qarda sürüşmək bizim üçün daha xoş idi, nəinki məktəbə getmək, evdə oynamaq. O illərin çətin günləri uşaqlığımızın şirin günlərini əlimizdən almışdı.***

Şahbuz rayonunun Biçənək kəndi dağların əhatəsindədir. Hələ payızın son aylarından başlayaraq dağların başına qardan papaq qoyulur. Qışda isə kənd çəməni, düzü, bağ-bağatı ilə bərabər ağ örpəyə bürünür. Bir dağ kəndinin qış mənzərəsini seyr etmək həvəsi də vardı bu səfərimdə. Biçənəyə soyuq bir qış günündə üz tutmuşdum. Bu kəndə uzanan yol rəvan və rahatdır. Kəndə getməkdə məqsədim həm də dağlıq ərazidə yaşayan insanların qış qayğıları, həyat tərzi, gündəlik yaşayışı ilə tanış olmaq idi. Elə bu istək məni qışın oğlan çağında Biçənəyə apardı. Biçənəklə bağlı təəssüratlarımı qələmə almazdan əvvəl oxucularımıza kənd haqqında bəzi məlumatları çatdırmaq istəyirəm.



Bu yurd yeri rayon mərkəzindən 24 kilometr şimal-şərqdə – Zəngəzur silsiləsinin ətəklərində yerləşir. Bir zamanlar daim hərəkətli olan Yevlax-Laçın-Naxçıvan avtomobil yolu Biçənəkdən keçirmiş. Naxçıvançayın ilk mənbəyi də elə bu kənddəki qar və qrunt sularının əmələ gətirdiyi Biçənək çayından başlanır. Kəndin İpək Yolunun üzərində yerləşməsi orta əsrlərdə bu yerlərdə sənətkarlığın inkişafına öz təsirini göstərib. Təsadüfi deyil ki, dəvə karvanlarının istirahət, yaxud dayanacaq kimi istifadə etdiyi Fərhad evi məhz Biçənək kəndinin yaxınlığındadır. Bir vaxtlar bu kəndin yaxınlığında son orta əsrlərə aid edilən Xınzirək yaşayış məskəninin də olduğu məlumdur. Amma sovet dönəmlərində kəndlərimizə olan ögey münasibət, qayğısızlıq bir çox yurd yerlərimiz kimi, Xınzirəyin də itib-batmasına səbəb olub. Yol çəkmək, körpü salmaq, qurmaq, yaratmaq, yaşayış şəraiti düzəltmək həm böyük zəhmət, həm də çox böyük vəsait tələb edir. Zəhmət çəkilmədiyindən və vəsait verilmədiyindən bəzi yurd yerlərimiz "öz ömrünü" başa vurub. Kəndə və kəndliyə dövlət qayğısı sayəsində yüzlərlə belə kəndlərimizə yaşamaq haqqı yalnız müstəqillik illərində verilib. O kəndlər ki elə Xınzirək kimi rəvan yola, işığa, qaza, telefona və ümumiyyətlə, ən adi yaşayış şəraitinə möhtac idi. Belə yurd yerlərimizə sahib çıxan dövlətimiz kənd sakinlərinə yaxşı yaşamaq imkanı yaradıb. Bu siyasəti böyük məsuliyyətlə, vətəndaşlıq qayəsilə həyata keçirənlər əməllərilə yeni bir tarix yazıblar. İndi gözəllik ömrünü yaşayan Biçənək də belə kəndlərimizdəndir.

Kənd çox qədim tarixə malikdir. Zəngəzur və Dərələyəz sıra dağlarının qovşağında yerləşən Biçənək aşırımı kəndə yaxınlığı ilə diqqəti çəkir. IX əsr ərəb tarixçiləri əl-Bəlazuri, əl-Yəqubi ərəblərin Azərbaycana hücumundan bəhs edərkən qoşunların məhz Biçənək aşırımından keçib getdiyini qeyd ediblər. 12 əsr bundan əvvəl tarixi mənbələrdə bu kəndin adının çəkilməsi Biçənəyin qədim tarixi haqqında danışmaq üçün kifayət qədər əsas verir.

Biçənəyə məxsus başqa bir xüsusiyyəti də qeyd etmək yerinə düşər. Kənddən 2 kilometr aralıda mineral su bulaqlarının olması da burada insanların sağlamlığına və uzunömürlülüyünə təsir edən əsas amildir. Mütəxəssislərin fikrincə, həmin bulaqlar öz zəngin tərkibilə mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadəyə yararlıdır. Biçənəkdə yüzlərlə göz yaşı kimi dumduru suyu olan bulaqlar yazda, yayda çöləçəmənə can verir.

Biçənək muxtar respublikanın dilbər guşələrindən olan Batabat yaylağının yaxınlığındadır. Ona görə də ilin müxtəlif fəsillərində Batabata yolu düşənlər Biçənəyin də hüsnünə tamaşa edirlər. Zəngin turizm potensialı olan Batabatda məhz bu məqsədlə yaradılan infrastruktur sahələrinin inkişaf etdirilməsi buraya üz tutan insanların sayını günbəgün artırır. Aparılan quruculuq işləri bu yurd yerinin simasını tamamilə dəyişib.

Son illərdə Biçənəkdə bir çox infrastruktur tədbirləri reallaşdırılıb. Hələ 2008-ci ilin sonlarında kənddə iki bina tikilərək istifadəyə verilib. Üçmərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, arxiv, mədəniyyət evi, kitabxana, polis sahə məntəqəsi, poçt fəaliyyət göstərir. Binada həmçinin həkim ambulatoriyası və Kolanı Kənd Uşaq Musiqi Məktəbinin filialı da yerləşir. Ambulatoriyada doğuş, həkim, qeydiyyat və manipulyasiya otaqları var ki, burada biçənəklilərə ilkin tibbi xidmətin göstərilməsi üçün hər cür şərait yaradılıb.

Biçənəkdə 2012-ci ilin noyabr ayında istifadəyə verilən beşmərtəbəli məktəb binası kəndə ayrı bir gözəllik bəxş edir. Bu gözəlliklərə başqa bir ahəng əlavə edən qar kəndi bir rəngə boyayıb. Bir neçə gün ərzində yağan qarı həyət-bacalarından, o cümlədən yollardan, obyektlərin ətrafından böyük həvəslə təmizləyən insanlara, qarda oynayan uşaqlara diqqətlə baxdığımı görən məktəbin direktoru Həzi Quliyev dedi:

– Biz dağ adamları soyuqdan qorxmarıq, qardan çəkinmərik. Qar yağdımı kənddə bir qaynarlıq yaranır. Hamı öz yolunu, işlədiyi idarənin ətrafını təmizləyir ki, yıxılan, zədəalan olmasın. İlin bu vədəsində – qar yağarkən evdə-eşikdə oturmağa hövsələmiz çatmaz. Kənd adamı belədir ki, uşaqlıqdan hər fəslə uyğunlaşır. Uşaq vaxtı qışda dağların ətəklərində qartopu oynamağa, sürüşməyə getdiyimizi unutmamışıq. İndi də bizim uşaqlarımız uşaqlıq həyatını yaşayır, qışın qarı, yazın yağışı onları qorxutmur. Amma biz onlardan fərqli bir həyat yaşamışıq. Çox böyük əziyyətlər çəkmişik. Ona görə də qurulanları, yaradılanları qorumalıyıq. Bizim vaxtımızda məktəbə gəlmək müşkül məsələ idi. Kəndin aşağısından üzüyuxarı zığ-palçıqlı, qarlı-buzlu yollarla yıxıla-dura çatdığımız məktəbdə soyuq sinif otaqlarında qanımız damarlarımızda sanki donurdu. Buz bağlamış canımızı evimizdə də yaxşı isidə bilmirdik. Ona görə də çöldə-bayırda oynamaq, qarda sürüşmək bizim üçün daha xoş idi, nəinki məktəbə getmək, evdə oynamaq. Çətin dövr uşaqlığımızın şirin günlərini əlimizdən almışdı. Bugünkü uşaqlara həsədlə baxıram. Çünki nə evdə, nə də məktəbdə heç bir çətinlik çəkmirlər.

Kəndin tarixində özünəməxsus yeri olan ilk məktəbin yaranması haqqında verdiyim suallara Həzi müəllim belə cavab verdi:

– Kəndimizdə ilk məktəb 1926-cı ildə yaradılıb və bir sinifdən ibarət olub. Maraqlısı odur ki, həmin məktəbdə oxumaq üçün yaş məhdudiyyəti qoyulmayıb. Yazmaq, öyrənmək istəyən hər kəs məktəbə qəbul olunub. Məqsəd kənd sakinlərinin ibtidai təhsil almasına, savadsızlığın, tədricən, aradan qaldırılmasına nail olmaq idi. 1933-cü ilə qədər belə olub. İkinci Dünya müharibəsindən sonra məktəb beşillik olsa da, sonrakı illərdə yeddiillik, səkkizillik təhsil sistemi yaradılıb. 1973-cü ildən etibarən kənd məktəbi orta məktəb kimi fəaliyyətini davam etdirib. 2000-ci ilə kimi kənd məktəbi 1910-cu ildə tikilmiş binada fəaliyyət göstərib.

Bugünkü 288 şagird yerlik yeni məktəb binasında 16 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 elektron lövhəli sinif, idman zalı, 4400-dən çox kitab fondu olan kitabxana, internetə çıxışı olan 18 kompüter dəsti ilə təmin edilmiş kompüter sinfi vardır.

Öz peşəsini sevən müəllimlər gələcəyimiz olan uşaqlara elmin sirlərini dərindən öyrətməyə, onları hərtərəfli tərbiyə etməyə çalışırlar. Pedaqoji kollektiv təlimlə yanaşı, tərbiyənin də yaxşı vətəndaş yetişdirmək üçün önəmli olduğunu bilir.

Həzi Quliyev dedi ki, yeni məktəbin istifadəyə verilməsi şagirdlərin sevincinə səbəb olubsa, müəllimlərin də üzərinə xeyli məsuliyyət qoyub. Çalışırıq ki, dövlətin qayğısının əvəzində daha çox nailiyyətlər qazanaq və məktəbin təhsil uğurlarını artıraq.

Kənddə əhalinin əsas məşğuliyyəti meyvəçilik, heyvandarlıq və arıçılıqdır. Biçənək dağlıq ərazidə yerləşdiyinə görə əkinçilik üçün o qədər də əlverişli deyil. Lakin həyətyanı sahələrdə tərəvəz bitkiləri əkilir və yaxşı məhsul əldə olunur. Buna görə də əhali qış azuqəsini öz həyətyanı sahəsindən topladığı məhsullarla hazırlayır.

Heyvandarlıq, xüsusilə arıçılıq biçənəklilərin daha çox maraq göstərdikləri sahədir. Çünki kəndin ərazisi arıçılığın və heyvandarlığın inkişafı üçün əlverişlidir. Çəkilən zəhmət hədər getmir. Arıçılar baltutarların yerini yaxşı bildiklərindən arı ailələrini mövsüm ərzində həmin ərazilərə aparır və yaxşı məhsul götürürlər. Biçənək balı öz tərkibinə və keyfiyyətinə görə seçilir.

Otu, gülü, çiçəyi minbir dərdin dərmanı olan Biçənək dağları həm də ələyəz, əvəlik, qazayağı, baldırğan, cincilim, cacıq, şıpırtı, xıncılovuz, süddücə, unnuca, xatınbarmağı, quzuqulağı kimi yabanı tərəvəz bitkiləri ilə də zəngindir. Kənd sakinləri yazda qışa hazırlıq görmək üçün həmin bitkiləri, eləcə də dərman otlarını yığıb qurudur, payızda isə ehtiyacdan artıq olanı bazara çıxarırlar. Yeri gəlmişkən qeyd edək ki, dolanışığını torpaqdan çıxaran kənd sakinləri kənd təsərrüfatı yarmarkalarının keçirilməsindən razılıq edərək deyirlər ki, olanımızı-qalanımızı satmağa yerimiz var. Buna görə də onlara bu şəraiti yaradanlara minnətdar olduqlarını bildirirlər.

Yunis Hüseynəliyev bildirdi ki, gözümü bu dünyaya Biçənək kəndində açmışam. Amma nə kəndə, nə də kəndliyə bu qədər qayğı görməmişəm. Onun dediklərindən:

– İndi Allaha şükür qazımız, işığımız, suyumuz, telefonumuz, bir də rahat yolumuz var. Günügündən gözəlləşən kəndimizdə tikilən evlərə bax, qiymətini ver. O vaxtlar belə gün-güzəran vallah o böyüklər yaşayan yerdə də yox idi. Bizim nə gəncliyimiz, nə də cavanlığımız rahat keçdi. Şükürlər olsun ki, qocalığımız belə gözəl dövrana düşdü. Allah bir az ömür versin ki, görmək istədiklərimizin, arzuladıqlarımızın sahibi olan nəvə-nəticələrimizin xoşbəxtliyindən pay alaq.

***Soyuq bir qış günündə qonaq olduğum ucqar dağ kəndində sakinlərin belə rahat yaşayışını görmək, onların ürəkdolusu sözlərini eşitmək, təbiətin əsrarəngiz mənzərəsini seyr etmək çox xoş idi. Üzlərdə gördüyüm təbəssüm və insanların mehribanlığı elə bil ki, məni şaxtadan qoruyurdu, üşümürdüm... Geriyə qayıdırıq. Çən-duman çökən dağları arxada qoyuruq. Yolboyu düşünürəm ki, yaradılan gözəlliklər yurd sevgisinin, qayğının və quruculuq siyasətinin bəhrəsidir. Vətəni sev deməklə bu sevgi yaranmaz. Uzun illərdir ki, yurdumuzda sanki bir rəsm əsəri yaradılır. Gözəlliyin bütün çalarları öz əksini tapan həmin tabloda şəhərlərimizin, kəndlərimizin, qəsəbələrimizin adları həkk olunur. Bunlar müstəqilliyimizin, ümummilli liderimizin millətimizə, dövlətimizə, vətənimizə bəxşişidir. Muxtar respublikamızda ulu öndərin yoluna sədaqət kəndimizi də, şəhərimizi də gülüstana çevirib.***

**Şəhla NƏBİYEVA**

***"Azərbaycan Respublikası vətəndaşlarının 2017-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 8 dekabr tarixli Sərəncamına uyğun olaraq Ordubad rayonunda gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***

# Oğullar əsgər gedir

Mərasimi Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Ordubad Rayon Şöbəsinin rəisi, mayor Vüqar Rəhimli açaraq gəncləri təbrik edib, onlara hərbi xidmətdə uğurlar arzulayıb. O, Vətən qarşısında borcunu yerinə yetirməyə yola düşən çağırışçıların valideynlərini təbrik edib və əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, hərbi texnikanın sirlərinə yaxından yiyələnməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Vüqar Rəhimli deyib ki, hərbi xidmət hər bir insanın Vətən qarşısında müqəddəs borcudur. Bu gün xalqımızın gənc övladları bu müqəddəs vəzifəni üzərlərinə götürməyə, müstəqil dövlətimizin və xalqımızın əmin-amanlığının keşiyini çəkməyə yola düşürlər. Bu gün hər bir azərbaycanlı işğal edilmiş torpaqlarımızın geri qaytarılmasına və sərhədlərimizin bərpa edilməsinə hazır olmalıdır.

Bildirilib ki, ölkəmizdə bütün sahələr üzrə əldə edilən nailiyyətlər ordumuzun da hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu gün Azərbaycanın, eyni zamanda onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini sayıqlıqla müdafiə edən müasir və güclü ordumuz vardır. Ordu quruculuğu sahəsində görülən işlər, ölkəmizin hərbi qüdrətinin yüksələn xətt üzrə inkişafı ordumuzun istənilən anda işğal altındakı torpaqlarımızı azad etməyə qadir olduğunu göstərir. Silahlı qüvvələrimizin muxtar respublikada yerləşən hərbi hissələrinin maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına göstərilən diqqət çağırışçı gənclərin də böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola salınmasına şərait yaradıb.

Sonra Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Ordubad rayon təşkilatının sədri, istefada olan polkovnik-leytenant Fərrux Nağızadənin, rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Etibar İsmayılovun və başqalarının çıxışları olub.

Çıxış edənlər Azərbaycan Ordusunun şanlı tarixindən, ulu öndər Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra ordu quruculuğu sahəsindəki misilsiz xidmətlərindən söhbət açaraq bildiriblər ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı silahlı qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə görülən işlərin nəticəsidir ki, ordumuz istənilən anda işğal altında olan torpaqlarımızı azad etməyə qadirdir. Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər silahlı qüvvələrin Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin də inkişafına hərtərəfli şərait yaradıb, maddi-texniki təminat gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Bütün bunlar çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verib.

Tədbirdə valideynlər adından Ramazan Əsgərov çıxış edərək övladının hərbi xidmətə yollanmasından qürur hissi keçirdiyini deyib, valideynlər adından çağırışçıları təbrik edib, Vətənə xidmət etməyin müqəddəs və məsuliyyətli vəzifə olduğunu bildirib, gənclərə şərəflə xidmət etməyi, sağ-salamat evə qayıtmağı arzulayıb.

Çağırışçılar adından çıxış edən Süleyman Süleymanov Vətənə şərəflə xidmət edəcəklərinə, komandirlərin tapşırıqlarını yerinə yetirəcəklərinə söz verib.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Culfa rayonunda da gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.

**Səbuhi HÜSEYNOV**

Xalq yaradıcılığı

## Xalçaçılıq sevilən sənət sahəsi kimi bu gün də yaşadılır

***Xalçaçılıq ta qədim zamanlardan Azərbaycanda çox sevilən bir sənət sahəsi kimi bu gün də yaşadılır. Bu incə sənətin nümunələri insanlara gözəllik bəxş edir, onların zövqünü oxşayır. Eyni zamanda xalçalar Azərbaycan mədəniyyəti haqqında, bir növ, informasiya daşıyıcısıdır. Bu sənət nümunələrində istər Azərbaycan təbiətinin əsrarəngizliyi, qeyri-adiliyi, istərsə də bu təbiət daxilində yaşayan Azərbaycan insanının qəlbinin, ruhunun gözəlliyi, incəliyi öz əksini tapıb.***



Muxtar respublikamızda da bu sahədə çalışan insanlar var. Onların əl işləri müxtəlif tədbirlərdə sərgilənir və qiymətləndirilir. Naxçıvan şəhərində xalçatoxuma ilə məşğul olan qadınlardan biri də Züriyyə Musayevadır. Bəhs etdiyimiz mövzu ilə bağlı onunla söhbətləşirik.

Müsahibim deyir ki, orta məktəb illərindən toxuculuğa maraq göstərib. Ancaq o vaxtlar, sadəcə, sapla toxuma növünü bacarıb. Artıq 6-7 il olar ki, xalçatoxuma ilə məşğul olan Züriyyə Musayeva bildirir ki, bu sahədə heç bir yerdə təhsil almayıb. Xalça toxunuşunda bildiklərini nənəsindən öyrənib.

– Əksər insanlar xalçaları buta, həndəsi naxışlarla toxuyur, lakin mən süjetli, yəni üzərində konkret bir təsvir əks olunan xalçalar toxumağı daha çox sevirəm. Buna görə də daim rəssamlarla əlaqə saxlayır, onlara rəsm sifarişləri verirəm. Onlardan rəsmi təhvil aldıqdan sonra onu özüm dəqiqliklə çeşniləyirəm, – deyən Züriyyə bildirir ki, xalçada, əsasən, orta hissəyə, yəni xalçanın göl hissəsinə daha çox əhəmiyyət verir, onun üzərində qüsursuz işləməyə çalışır. Xalçalarda kənardan ortaya doğru sıralasaq, su, muncuq, yelən və göl hissələri olur. Mən isə xalçadakı süjet asanlıqla qavranılsın deyə bir çox hallarda bu sıralama qaydasına əməl etmirəm. İstəyirəm ki, əl işlərimə nəzər yetirən insanlar elə ilk baxışdan onun üzərində olan mənanı qavrasın.

– Xalça toxumaq üçün hansı alətlərdən istifadə olunur? – sualımıza o, belə cavab verir: – İlk olaraq hana qurulur. Sonra onun üzərində əriş hazırlanır. Ərişi arxadakı ox adlanan uzun taxta üzərinə qoyurlar ki, iplərin hamısı düz, eyni olsun. Bundan sonra hər ilmənin öz rənginə görə saplar bir-bir toxunulur. Kirkid isə xalça toxuyarkən toxunmuş ilmələri sıxlaşdırmaq üçün işlədilən alətdir. Bir ilmənin səhv toxunması belə, o saat gözə çarpır. Buna görə də xalçatoxuma çox incə və diqqət tələb edən bir işdir. Bu işdə rəng seçimi də çox vacibdir. Rənglər bir-birini tamamlamalıdır.

Xalçatoxumada istifadə olunan bıçaqların iplərin sıxlığından asılı olaraq müxtəlif növləri var. Sıxlıq dedikdə 10 santimetrə yerləşən ilmələrin sayı nəzərdə tutulur. Yəni 10 santimetrə 40 ilmə yerləşən xalçanın sıxlığı 40 olaraq hesablanır. Hazırda üzərində işlədiyim dolça təsvirli xalça sona çatmaq üzrədir. Xalçaya axırıncı ilmələr vurulmaqla toxuma işi yekunlaşır, xalçanı kəsmək üçün hazırlıq işləri aparılır. Bunun üçün bir neçə çərək arğac ipi əriş taylarının arasından keçirilərək kirkid və həvə ilə möhkəmcə döyəclənib aşağı oturdulmaqla bərkidilir. Sonra daranaraq qayçı vasitəsilə əriş ipliklər kəsilir ki, xalçanın üstü hamar olsun. Bu xalçanı toxuduqdan sonra isə bir palaz toxumağı qərarlaşdırmışam. Palaz xovsuz xalça tipinə aiddir. Buna baxmayaraq, Haça dağı ortaya çıxarmağı düşünürəm. Fərqli bir görünüş yaradacağımı güman edirəm. Ümumiyyətlə, bu sahədə bir neçə ideyam var. Mən, sadəcə, həvəskar kimi bu işlə məşğul oluram. Bu işdə o qədər həvəsliyəm ki, onunla məşğul olduğum zaman vaxtın necə keçdiyindən xəbərim belə, olmur. Boş vaxtlarımı, demək olar ki, sadəcə, xalça toxumaqla keçirirəm və bundan böyük zövq alıram. Bir az çətin və səbir tələb edən bir iş olsa da, çox istərdim ki, muxtar respublikamızda bu işi icra edənlərin sayı getgedə artsın. Bu sənət bizə nənələrimizdən qalan mirasdır və nəsildən-nəslə keçərək bu günümüzə qədər gəlib çıxıb. Hər bir Azərbaycan qadınının xalça toxumaq barədə müəyyən bir təsəvvürünün olmasının nəyi pisdir ki?

Bəli, Züriyyə Musayeva haqlıdır. Necə ki bu gün hamı xalça toxumağı bacarmır, heç şübhəsiz ki, bu, gələcəkdə də belə olacaq. Bu, normal haldır. Amma biri var nəyisə bacarmayasan, biri də var ki, o barədə, ümumiyyətlə, təsəvvürün olmaya. Birinə nəsə öyrədə bilməyə bilərik, lakin əgər istəsək, qarşımızdakına o haqda müəyyən məlumatlar aşılaya bilərik. Düşünəndə ki, bu gün istənilən sahədə məlumatlanmaq üçün kifayət qədər mənbələr var, deməli, bu, o qədər də çətin bir iş deyil. Lap elə götürək muzeyləri. Dünənimizi gələcəyə ötürən mənbə hesab olunan muzeylərdə hər şey dolğunluğu ilə öz əksini tapıb. Eləcə də muxtar respublikamızda xalçalar, onların növləri, toxunması və tarixi barədə maariflənmək istəyənlər üçün Naxçıvan Dövlət Xalça Muzeyinin qapısı hər kəsin üzünə açıqdır.

✍ **Fatma BABAYEVA**

### Naxçıvan Muxtar Respublikası üzrə 2016-cı ilin dekabr ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1997623 | 199762 | 200516 | 100,4 |
| 2. | Şahbuz rayonu | 953236 | 95324 | 95559 | 100,2 |
| 3. | Naxçıvan şəhəri | 7862235 | 786224 | 787835 | 100,2 |
| 4. | Culfa rayonu | 1805255 | 180526 | 180758 | 100,1 |
| 5. | Kəngərli rayonu | 1518992 | 151899 | 152069 | 100,1 |
| 6. | Sədərək rayonu | 433742 | 43374 | 43404 | 100,1 |
| 7. | Şərur rayonu | 3521952 | 352195 | 352361 | 100,0 |
| 8. | Babək rayonu | 3754802 | 375480 | 375491 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 8140068 | 1601252 | 1719036 | 107,4 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **29987905** | **3786036** | **3907029** | **103,2** |

***...Bazarda bir nəfərin kisədəki əriştəni götürüb iylədiyini və sonra sakitcə qaytarıb yerinə qoyaraq uzaqlaşmaq istədiyini gördüm. Satıcı o saat, sizin axtardığınızdan da var, – deyərək digər bir kisənin dibində olan qıpqırmızı əriştədən xışmalayıb ona uzatdı. Alıcı ovcuna aldığı əriştəni heç burnuna yaxınlaşdırmadan: – İyinə bax e, – dedi və satıcıdan hamısını çəkməyi xahiş etdi. O, uzaqlaşandan sonra maraqla baxdığımı görən satıcı, – tanıyıram, – dedi. Bakıda yaşayır. Həmişə ocaq əriştəsi alıb aparar.***

*Milli mətbəximiz*

## Ocaq əriştəsi, kirkirə yarması

### *Bunlar yaxşı qazanc yeri də ola bilər*





Bazarda qarşılaşdığım mənzərə məni bu mövzuda bir yazı hazırlamağa sövq etdi. Kənddə doğulub böyüdüyümdən təmtəraqla əriştəkəsmə mərasimini xatırladım. Yadımdadır, payız vaxtı hamı az qala siyahı tuturdu ki, sabah kim əriştə kəsəcək. Çünki məxsusi əriştəkəsənlər, özəkçilər vardı ki, onlar daha bacarıqla bu işi görürdülər. Əriştə kəsmək xüsusi bir maraq və bacarıq tələb edir. Hər şey qaydasında aparılmasa, əriştə ipdə durmaz, tökülüb zay olar və ya qalın olarsa, dadında fərq olar. Əriştənin xəmiri də xüsusi səriştə ilə yoğurulmalıdır. Xəmir duzlu olmalıdır. Axşamdan, özü də çox bərk yoğurulmalıdır. Üstünə duz səpilib örtülən xəmir sabah erkəndən kündələnir ki, kəsməyə gələnlər yubanmasın, çünki payızın qısa günündə Günəş tez batar, əriştə qurumaz. Bu mərasim xəmirin qədərinə görə, 7-15 adamın gücü ilə həyata keçirilir. Kündələr vərdənə edilib əriştəkəsənlərə verilir, kəsilən əriştə özəkçilərə ötürülür, özəkçi bunu xəlbirin üstündə özəyir ki, əriştənin ətəyi həm nazik olsun, həm də unlu olmasın. Sonra məcməyilərə dairəvi şəkildə qoyulan əriştələr təcili kəndirin üzərinə yan-yana, səliqə ilə sərilir ki, yapışmasın. Əriştə quruyub ipdən yığılandan sonra böyük bir parçanın arasında iki-üç gün saxlanır. Bu, üzərindəki unun əriştəyə hopdurulmasına, artıq unun isə əriştədən tökülməsinə şərait yaradır.

Sonra ocaq qurulur, üstünə qoyulan sacın ətrafları suvanır ki, ocaqdan qalxan tüstü nə əriştəni yandırsın, nə də ocağa tökülsün. Beləcə, daşgirdə ələnib unu tam tökülən əriştə sacın üzərində qovrulur, ilboyu da ondan müxtəlif cür yeməklər hazırlanır.

Bəli, böyüklər həmişə cavanları "qabaqdan qanlı qış gəlir", – deyə yazdan qış tədarükü görməyə tələsdiriblər. Çünki qış fəslinin özü ilə hansı çətinlikləri gətirəcəyini kimsə bilmir, bu, təbiətin insafına qalıb. Ona görə kənd yerlərində qışa hazırlığa xüsusi diqqət yetirilib. Bu hazırlıq içərisində əriştə kəsiminə xüsusi önəm veriblər. Atababalarımızın sözüdür: çörək süfrəmin şahıdır. Elə əriştə də çörək kimi müqəddəs tutulub və boğçamızdan əskik olmayıb. Əsrlərdən bəri qış ruzisi kimi tədarük edilib. O vaxt məişət şəraitimiz də yaxşı deyildi. Amma bu çətinliklər içərisində kimsə bu adət-ənənədən kənarda qalmayıb. Təəssüf ki, indi kəndlərimizin çoxunda əriştə kəsməyə maraq azalıb. Mağazalarda satılan hazır məhsula üstünlük verilir. Bunun əleyhinə deyilik. Bu gün Naxçıvanda sahibkarlığa yaradılan şərait bütün sahələrin inkişafına, müxtəlif növ və çeşidli məhsul istehsalına rəvac verib. Amma gəlin görək ocaqda qovrulan, odunun ətri çökən əriştənin dadını verirmi mağazalarda satılan əriştə? Elə alıcılar var ki, əriştədə ocaq ətri axtarır. Və bu gün bu sahə dolanışıq yeri də ola bilər.

Düzdür, elə kəndlərimiz var ki, bu gün də həmin adət-ənənəmiz qorunub saxlanılır. Kükü kənd sakinləri, ağbirçək analarla söhbətimdə buna əmin oldum ki, kəndin yaşlı qadınları bu ənənəni yaşatmağı daim gəlinlərə, gənc qızlara tövsiyə edirlər. 75 yaşlı Əfruz Bağırova dedi ki, elə Kükündə doğulub böyümüşəm. Uşaqlıqdan gördüyüm əriştəkəsmə adətini bu gün də yaşadırıq. Ümumiyyətlə, kənddə hər bir evdə bu gün əriştə də kəsilir, yarma da çəkilir. Əlavə etdi ki, Kükü böyük kənddir. Qədim vaxtlardan kənddə üç su dəyirmanı olub. Kənd camaatı buğda əkirdi. Yazlıq buğdanı üyüdüb əriştəni ondan kəsirdik.

Niyə? – sualıma yazlıq buğdanın əriştəsi çox yaxşı özənirdi, bəzən 2 metrədək uzunluğu olurdu, həm də dadı fərqliydi, – dedi. Payız fəslində hər məhəllədə qonşular bir yerə yığılır, hər gün birinə əriştə kəsirlər. Çünki bu, elə bir nemətdir ki, qış aylarında hər evdə olmalıdır. Əriştəni tək də bişirmək olur, düyü, yarma, mərciməklə plovu da hazırlanır. Düyü, ələyəz, qovurma ilə bişirilən çəkmənin dadı-tamı özgədir.

Kəndin daha bir yaşlı sakini Ceyran Məmmədova ilə söhbətim də maraqlı oldu. Dedi ki, ailəmiz on nəfərdən ibarət idi. Kənd yeri, zəmanə də çox ağır. Ona görə qışda ac qalmamaq üçün yazdan çöllərin pencərindən yığıb qurudur, payız gəldi bağların meyvəsini zirzəmilərə yığır, qovurma edir, əriştə kəsir, yarma çəkirdik. Bilirdik ki, yazacan azuqəmiz var. Sonra əlavə edir ki, hər il 3 vedrə (30 litr) suyun xəmirini edib əriştə kəsirdim. Qıpqırmızı qovurub kisələrə doldurub qoyurduq "başımızın altına". Bəs yarmanı necə hazırlayırdınız? – sualına belə cavab verir: – Ağ buğdanı yuyur, qaynadır, arıtlayır, sonra kirkirədə çəkib torbalara yığıb qış uzunu dadlı-tamlı yeməklər hazırlayırdıq.

Bu söhbətlər istər-istəməz qəlbimdə bir sual yaradır: görəsən, kənd yerlərində yaşayanlar niyə bu sahə ilə məşğul olmurlar? Belə kiçik sahibkarlıqla məşğul olanlar yaxşı gəlir əldə edə bilərlər. Axı 10 litr suyun unundan kəsilən əriştə 50 kiloqramlıq un kisəsinin yarısından, bəlkə də, artıq olursa və 1 kiloqramı da Naxçıvanda 3 manata satılırsa, başqa sözə ehtiyac yoxdur. Üstəlik, Bakı şəhərinə çıxarılıb, Naxçıvan istehsalı adıyla alıcıya təqdim olunsa, məncə, bundan vaz keçilməz. Burada bir məqam da var ki, bu sahəyə heç bir kommunal xərc də tələb olunmur. Su, un, duz və əl əməyi. Onda niyə bu sahədən qazanc götürməyək?

Fikrimizcə, yarma da bu baxımdan diqqətəlayiqdir. Çünki müasir texnoloji avadanlıqlarda hazırlanan yarma ilə kirkirədə çəkilən yarmadan bişirilən xörəyin dad-tamındakı fərqi təsdiq etməmək insafsızlıq olar. Düşünəndə ki, bu gün kirkirədə çəkilmiş yarmanın 1 kiloqramı bazarda 2,50-3 manata satılır, onda niyə bolluq yaratmayaq? O da var ki, yarmanın xeyirli cəhətlərini bilən alıcılar daha çox kirkirədə çəkilmiş yarmaya üstünlük verirlər. Çünki yarma həzm prosesinə müsbət təsir göstərən müxtəlif qida maddələri ilə zəngindir. Kifayət miqdarda istifadə olunması doyumluq yaradaraq artıq çəki riskini azaldır. Həzm yolunun ağır iltihabından əziyyət çəkən və həmçinin xəstəlikdən sağalan və ciddi pəhriz tutan insanlara tövsiyə olunur. Və bu keyfiyyətlər daşda çəkilən yarmada tərkibini daha çox saxlayır.

*Əzəldən şəhər sakinlərini kənd yerlərində yaşayanlar müxtəlif məhsullarla təmin ediblər. Yəni şəhərliyə mətbəx dadını kəndin zəhmətkeş insanları, kənd məhsulları bəxş edib. Bəs indi? Düzdür, bu gün də şəhər adamı kənddə yetişdirilən məhsullardan istifadə edir. Həmin məhsulların içərisində əriştə və yarma da öz yerini tuta bilər...*

✍ **Hafizə ƏLİYEVA**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 22